Kaspi 2019.- 7 noyabr.- S.11.

# Su üzərində kukla teatrı





Cövhər Xeyrullayeva
teatrşünas

İstər qədim zamanlarda, istərsə də, müasir dövrdə dünyanın hər yerində kukla tamaşalarının bənzər növlərini müşahidə etmək mümkündür.

Lakin, istisna hal Vyetnam su üzərində Kukla Teatrını göstərmək olar .

Kukla teatrının bu unikal təzahürü VII əsrdə Çində yaranıb, vyetnamlılar tərəfindən müasir dövrümüzə qədər qorunub-saxlanılıb.

Vyetnamın şimal əyalətlərində su üzərində kukla tamaşaları XI əsrdən oynanılmağa başlayıb. Bu unikal teatr növü kəndlilər tərəfindən, bir qayda olaraq, yağışlı havalarda və məhsul yığımından sonra əylənmək məqsədi ilə düşünülüb. Kəndlilərin inancına görə, onların bütün məişət işlərini ruhlar və allahlar idarə edirdi. Bu səbəbdən tamaşalar allahlara sitayiş etmə, onlardan rəhm diləmə və razı salmaq mərasimləri kimi keçirilirdi. Tamaşalar əvvəl su basmış düyü sahələrində, gölməçə və göl üzərində göstərilirdi, indi isə teatrda süni göldən, hətta belə demək mümkündürsə, hovuzdan istifadə olunur.

Qədim Çin tamaşalarında su kukla-obrazlarla birbaşa əlaqəli olub, süjetin inkişafına xidmət edirdisə, Vyetnamda zamanla öz ilkin mahiyyətini itirərək əksərən heç bir şey ifadə etmir, sadəcə, kuklaların idarə olunmasında öz funksiyasını qoruyub saxlayırdı. Tamaşaların mövzusuna nəzər salsaq, bu faktın təsdiqini görə bilərik. Mövzusu “balıq ovu”, “qayıq yarışı”, “dəniz döyüşü”, “ördək yemləmə” və s. olan tamaşalarda su müəyyən rol oynayırdı. Kəndlilərin gündəlik yaşayışı, məişət səhnələri və vyetnamlıların sevimli mifik obrazlarının təsviri tamaşaların başlıca mövzusu idi. Burada əjdaha müdrikliyi, simurq quşu həyat enerjisini, təkbuynuz isə ağlın və bədənin gücünü simvolizə edirdi. Həmin tamaşalar su ilə əlaqəli deyildi. Səhnəciklərin əksəriyyəti süjetsiz nömrələrin göstərilməsindən ibarət idi. Bu səhnəciklərdə komik və şən obraz olan gənc oğlan Teu nağılçı qismində çıxış edirdi. Tamaşalar arasında ən məşhuru “Əjdahaların rəqsi” hesab edilir.

İlkin formasını müasir dövrə qədər qoruyub saxlamış su üzərində kukla tamaşalarının hər biri 17-18 qısa səhnəcikdən ibarət olur. Bu səhnəcikləri səhnədə yaradılmış süni göl kənarında kənarında əyləşib, kiçik orkestr və kuklaları səsləndirən opera ifaçıları müşayət edir. Musiqiçilər fleyta, baraban və milli donbou alətində ifa edirlər. Bambukdan hazırlanmış şirma ilə göl iki yerə bölünür və kuklaçı aktyorlar şirmanın arxasında gizlənərək belə qədər suya girirlər. Kuklaların idarə edilməsi üçün istifadə olunan çubuqlar 1 metr uzunluğunda və 5 kiloya qədər ağırlıqda olurlar. Tamaşaçılar nə aktyorları, nə də kuklaların idarə olunduğu çubuqları görmürlər. Çünki kuklaçılar onları da suyun altında məharətlə gizlədirlər. Həm texnikanı suda idarə etmək, həm də kuklaların zalda necə görünməsinə nəzarət etmək prosesi qəlizləşdirir. Hər tamaşada minimum 11 nəfər kuklaçı aktyor iştirak edir.

Bu teatr formasının yarandığı ilkin dövrdə kukla əvəzi əkin sahələrində qoyulan müqəvvalardan istifadə olunurdu. Zaman keçdikcə tamaşaya marağın artması kuklaların təkmilləşməsinə səbəb oldu. Artıq kuklalar ağacdan və bambukdan hazırlanır və əlvan rəngli kostyumlarla bəzədilirdi.

12 mart 1956-cı il tarixində dövlət illərin sınağından keçib gələn bu ənənələrin qorunması üçün Vyetnam Milli Su üzərində Kukla Teatrını yaratdı. Teatr özünün ilk genişmiqyaslı uğurunu isə 1984-cü ilə qazanmağa nail oldu. Su üzərində Kukla teatrı 15 nəfərlik kollektivlə Niderland, Almaniya, Fransa və İtaliyaya qastrol səfərinə çıxdı və böyük nailiyyətlərlə vətənə döndü.





WWW.KASPI.AZ 7 noyabr 2019